# İÇİMİZDƏN KEÇƏN EŞQ, QƏM VƏ İŞIQ KARVANI...

*Məhəmməd Füzuli Azərbaycan ədəbiyyatı və mədəniyyət tarixinin iftixarıdır.*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**




*Yədulla AĞAZADƏ,*
*filologiya elmləri doktoru, professor,*
*Respublikanın Əməkdar müəllimi,*
*Azərbaycan Yazıçılar*
*və Aşıqlar Birliyinin üzvü*

**Heyrət, ey büt!...**

Heyrət bütün gözəlliklərin, bütün mənəvi ucalıqların anasıdır. Heyrətsiz gözəllik, yaradılış yoxdur. Heyrət məftunluq yaradır. Məftunluq bizi danışmağa deyil, susmağa, heyrətin önündə səcdədə olmaq xoşbəxtliyi yaradır. Necə ki, dahi Azərbaycan şairi Məhəmməd Füzuli belə bir heyrətin, gözəlliyin qarşısında susur, donur, qüdrətin, ülviyyətin portretini bircə beyti ilə yaradır:

Heyrət, ey büt, surətin gördükdə lal eylər məni,
Surəti halım görən surət xəyal eylər məni.

Dahi şair bir beytdə "surət" sözünü üç dəfə işlətməklə gözlərimiz önündə bənzərsiz bir lövhə ilə çıxış edir. Qənirsiz gözəlin surətini, camalını görən lirik qəhrəmanın dili söz tutmur, lal olur, onun surəti - halını, düşmüş olduğu vəziyyəti görənlər aşiqin canlı deyil, surət-heykəl, şəkil olduğunu zənn edirlər. Heyrətin gücünü, qüdrətini görürsünüzmü?!

Aqillərin, müdriklərin sözü onların təyinatıdır, məqamıdır. Necə ki, dahi Füzuli buna belə bir aydınlıq gətirir:

Can sözdür, əgər bilirsən insan,
Sözdür ki, deyirlər özgədir can.

Bu baxımdan Füzuli yaradıcılığı bütünlüklə bir heyrətin, gözəlliyin, vurğunluğun heyranedici ifadəsidir. Bu gün Füzulini dinlədikcə, oxuduqca, heyrətin gücünü, qüdrətini yaşadıqca şairin ölməz xəyalına "Heyrət, ey büt! - deməkdən başqa bir çarəmiz qalmır!

Məndə tövfiq olsa...

Füzulini digər anadilli klassik şairlərdən fərqləndirən əsas cəhətlərdən biri onun əruzu Azərbaycan - türk dilinə uyğunlaşdırmaq cəhdidir, şeir -sənət haqqında bu gün də aktuallığını itirməyən elmi-ədəbi düşüncələridir.

Üç dildə yazıb-yaradan dahi şair əksər şeirlərində, divanlarının dibaçəsində şeirə, sənətə ayrıca münasibət bildirmiş, anadilli şeir qarşısında duran problemləri yaşamış, onları aradan qaldırmaq yollarını düşünmüşdür. Orta əsrlərdə şeir, "nəzmi- nazik", - deyiləndə Azərbaycan-türk dilinə, sisteminə yatmayan əruz nəzərdə tutulmuş, həmin vəzndə ərəb, fars dilində yazılan əsərlər daha çox yayılmışdır. Ana dilinin böyük təəssübkeşi olan şair bu çətinliyin öhdəsindən gələcəyi haqda qitələrinin birində ədəbi bəyanatla çıxış etmişdir:

Ol səbəbdən farisi ləfzilə çoxdur nəzm kim,
Nəzmi-nazik, türk ləfzilə ikən düşvar olur
Ləhceyi - türki, qəbuli-nəzmi -tərkib etməyib,
Əksərən əlfazi - namərbutü nahəmvar olur.
Məndə tövfiq olsa bu düşvarı asan eylərəm,
Növbahar olğac tikəndən bərgi-gül izhar olur.

Bəli! Dahi şair obrazlı bir ifadə ilə bu çətinliyi bacarığı, əzmi (tövfiq) sayəsində aradan qaldıracağını, tikanlı gül kolundan baharda güllər hasilə gəldiyi kimi türk dilindən də şeir gülüstanı yaradacağını bildirir. Şair bir çox əsərlərində, xüsusən ölməz məhəbbət dastanı "Leyli və Məcnun" poemasında da bu barədə xəbər verir. Şair şeir binasının təmirə ehtiyacı olduğunu, həmin təmiri uğurla həyata keçirəcəyinə and içir və andını milli təəssüblə, poetik qüdrətlə həyata keçirmişdir!

Dahi şair təkcə milli şeir binasını qalibiyyətlə təmir etməmişdir. O həm də imlamıza, nəzm və nəsr dilinə maarifçi düşüncəsi ilə yenilik gətirmişdir.

Belə ki, Füzuli əlifba, qrafika və imla məsələlərinə, sözün düzgün yazılış, deyiliş qaydalarına əməl etməyin vacibliyi haqqında danışmış, özündən sonra XVIII əsrdə M.F.Axundzadənin həyata keçirdiyi əlifba islahatlarının layiqli sələfi rolunda çıxış etmişdir. Şair "Düz yazmayan qələm maarif binasını uçuran külüngdür", - deyərək ərəb əlifbasının çətinliklərini dilə gətirmişdir:

Qələm olsun əli ol katibi - bədtəhririn,
Ki fəsadi - rəqəmi sözümüzü şur eylər
Gah bir hərf süqutilə qılır nadiri - nar,
Gah bir nöqtə qüsurilə gözü kur eylər.

Bütün bunlar belə deməyə əsas verir ki, dahi Azərbaycan şairi qüdrətli yaradıcılığı, anadilli şeirimizdə novatorluq etməsilə, şeir dilimizə zənginlik gətirməsiylə görkəmli rus şairi A.S.Puşkinin XVIII əsrdə rus ədəbiyyatında gördüyü işi XVI əsrdə anadilli poeziyamızda Məhəmməd Füzuli həyata keçirmiş, Azərbaycan ədəbi-bədii dilinin banisi səviyyəsinə yüksəlmişdir!

Azərbaycan filoloji fikrində Füzuli yaradıcılığı həm ədəbiyyatşünaslıq, həm də dilçilik mövqelərindən ardıcıl, ətraflı tədqiq və təhlil edilmişdir. Həmid Araslının, Mir Cəlalın, Azadə Rüstəmovanın, Mirzağa Quluzadənin, Əliyar Səfərlinin, Xəlil Yusiflinin, Sabir Əliyevin, Teymur Kərimlinin, Fuad Qasımzadənin, Yaşar Qarayevin və başqalarının, dilçi alimlərimizdən Tofiq Hacıyevin, Musa Adilovun, Samət Əlizadənin, Nizami Cəfərovun Füzuli yaradıcılığı ilə silsilə elmi əsərlərini qədirşünaslıqla bildirməli, filoloji fikirdə ayrıca bir elmi məktəbin - füzulişünaslığın yarandığını iftixarla qeyd etməliyik.

Füzuli sənətini "sahilləri və dibi görünməyən, yeri-göyü əks etdirən mühit dənizlərinə" bənzədən görkəmli füzulişünas alim və yazıçı Mir Cəlal "Füzuli sənətkarlığı" monoqrafiyasında qüdrətli şairin yaradıcılıq dünyasını milli qürur, iftixar səhifəsi kimi təqdim və təhlil etmişdir. Hesab edirəm ki, bu incə məqamlara diqqət yetirdikdə, şairin çoxsaylı, ədəbi bəyanatlarının cahanşünül nəticələrini iftixarla nəzərdən keçirdikdə .."Məndə tövfiq olsa...", - deyən ölməz Füzulinin ədəbiyyat tariximizdə əzəmətli yeri daha aydınlığı ilə görünür.

Füzuli eşq, məhəbbət nəğməkarıdır

Füzulinin daha bir məşhur ədəbi bəyanatı eşqlə bağlıdır: "Mən aşiqəm, sözüm də aşiqanədir" - deyən dahi şairin eşq fədaisi yaradıcılığının əsasını təşkil edir. Görkəmli ədəbiyyatşünas alim Yaşar Qarayev klassik şairlərimizi dəyərləndirərkən demişdir: "Bizim ədəbiyyatda ağlın dastanına zirvə Nizamidir, eşqin faciəsinə meyar Füzulidir". Qəzəl şeirimizin ən böyük ustadı kimi Şərqin poeziya məkanında əsas söz sahibi olan Füzuli bir çox əsərlərində özünü eşq adamı kimi təqdim edir. Şair çox zaman özünü klassik aşiqlər kimi tanınan Məcnunla, Fərhadla müqayisədə daha üstün mövqedə olduğunu bildirir:

Məndə Məcnundan füzun aşiqlik istedadı var,
Aşiqi sadiq mənəm, Məcnunun ancaq adı var.

Rübailərindən birində Füzuli aşiqlərin külündən, torpağından yarandığını iddia etməklə yaradıcılığının əsas hədəflərini bir daha dilə gətirmişdir. Şair Şərq aləmində eşqin ən böyük əzabkeşləri, vurğunları olaraq tanınan Məcnun, Vamiq və Fərhadla müqayisədə özünü nişan verir:

Məcnun oda yandı şöleyi - ah ilə pak,
Vamiq suya batdı, eşqdən oldu həlak,
Fərhad həvəs ilə yelə verdi ömrün,
Xak oldular onlar, mənəm imdi ol xak.

Füzuli nümunəsində olan mütəfəkkir şairlər bir günəş timsalındadırlar. Şairin bütün əsərlərinə, xüsusən aşiqanə qəzəllərinə baxışın miqyası çox genişdir, əhatəlidir. Zatən dünyanı öz nuruna bürüyən günəş hər tərəfdən görünür, hamıya öz nurundan ehsan edir. Füzuli yaradıcılığı da öz nurundan hamıya ehsan etməkdədir. Dahi şairin aşiqanə qəzəlləri təkcə dünyəvi, yaşanılmış eşqin ifadəsi olmayıb, həm də irfani düşüncənin, böyük eşqə gedən yolun mərhələləri, Yaradana, Haqqa qovuşmaq cəhdləri kimi də dəyərləndirilməlidir. Bu cəhətdən anadilli lirik şeir divanında təqdim olunan ilk qəzəl çox mətləblərdən xəbər verir:

Qəd ənarəl - eşqü- lil - üşşaqi minhacəl hüda!
Saliki- rahi həqiqət eşqə eylər iqtida -

deyən şair həqiqət yolunun müsafiri olaraq eşqin məqamını göstərir, eşqin şəriət, təriqət, mərifət mənzillərindən həqiqət mərtəbəsinə yüksəldiyini, onun cəfasının əslində səfa olduğunu dilə gətirir:

...Görüb əndişeyi - qətlimdə ol mahi, budur virdim,
Ki, bu əndişədən ol məh peşiman olmasın, ya rəb!
Çıxarmaq etsələr, çəkib peykanın ol sərvin,
Çıxan olsun dili məcruh, peykan olmasın, ya rəb.

Yarının, Eşqinin cəfaları cəfa sayıla bilməz. Həqiqi aşiq bu yollardan keçməlidir. Həqiqi eşqə çatmaqdan ötrü oddan, atəşdən keçməli, ənbər xislətini ortaya qoymalısan. İzzətdin Həsənoğlunun xəbər verdiyi kimi:

Tutuşmayınca dər atəş, bəlürməz xisləti - ənbər,
Nə ənbər, ənbəri suziş, nə suziş, suzişi məcmər.

Füzuli bir çox aşiqanə duyğu və düşüncələrini, irfani kəlamlarını lirik qəhrəmanlarının, xüsusən Məcnunun, Leylinin dili ilə söyləyir, eşqin bir fədakarlıq, hünər işi olduğunu bildirir:

Aşiq oldur kim, qılır, canın fəda cananına,
Meyli - canan etməsin hər kim ki, qıymaz canına.

Düşünürəm ki, geniş şərhə ehtiyac yoxdur, hər şey aydındır. Bu tamam başqa mövzudur ki, Füzuli eşqdən, məhəbbətdən danışanda da zamanının, dövrünün övladı olaraq gərdunu, quruluşu yaddan çıxarmır, ictimai mühitin ağrılarından, zülmət səltənətində nur olan aşiqlərin durumundan haray çəkir:

Leyli demə - cənnət icrə bir hur,
Məcnun demə - zülmət içrə bir.

Həmin cənnət xislətli gözəlin, sanki bir mələk olan Leylinin, həmçinin zülmət içrə, qaranlıq cəmiyyətdə nurun, işığın - Məcnunun faciəli aqibəti çox mətləblərdən xəbər verir, dövrə, zamana Füzuli qələmi ilə güzgü tutulur.

Füzuli yaradıcılığı dövrünün aynasıdır...

Məhəmməd Füzuli romantik şairdir. Bunun konkret səbəbləri hamıya yaxşı məlumdur. Lakin sənətkar romantik, yaxud realist yöndə əsərlər yazsa da o, öz dövrünün, zamanının oğlu olaraq qalmaqdadır. Nizaminin əsərlərində nə qədər romantik səhnələr içərisində real lövhələr görür, onu bütün dövrlərin, zamanların müasiri sayırıq. Füzuli yaradıcılığında da bu cəhət qabarıq şəkildə özünü göstərməkdədir. Şair romantik təsvirlərin mayasında, batinində real vəziyyəti, cəmiyyətdə baş verən hadisələri çox aydın şəkildə göstərməyi bacarmışdır. "Leyli və Məcnun" poemasında qələmə alınan iki xarakterik detalı nəzərə çarpdırmaq istəyirəm. Belə ki, lirik qəhrəman Məcnun insanlardan qaçıb, vəhşilərlə ünsiyyət quranda, dərdlərinin ağırlığından ah çəkərkən dağdan əks-səda, qarşılıq gəlir. Bu, təbii bir hadisədir. Lakin romantik şair bundan öz məqsədi üçün istifadə edir. Bununla demək istəyir ki, cəmiyyət, dövr insanlığa, insanlığa biganədir, onların səsinə, dərd-qəminə cavab vermir, bu səbəbdən dağ-daş Məcnuna həyan olur. Yaxud, şair Məcnunu zülmət səltənətində bir nur, işıq görür. Ətraf qatı zülmət içərisində olsa da, onun qəhrəmanı zəif şam olaraq şölələnir. Belə bir cəmiyyətdə həmin işartının gec-tez sönəcəyi şəksiz - şöbhəsizdir.

Təsadüfi deyildir ki, iki gəncin faciəsinə görə əsərin sonunda şair gərdunu, başqa sözlə, dünyanı günahkar bilir, zəmanəyə ittihamlar yağdırır:

***(Davamı 9-cu səhifədə)***

# İÇİMİZDƏN KEÇƏN EŞQ, QƏM VƏ İŞIQ KARVANI...

*(Əvvəli 8-ci səhifədə)*

Əhbabə nəqiz dövr edərsən,
Ərbabi - kəmalə cövr edərsən
Məcnun əgər olsa idi cahil,
Olmazdın itaətində kahil...

Silsilə ittihamlardan məlum olur ki, dünya cahillər üçün rahatlıq yeridir, əksinə aqillərə zindan kəsilmişdir. Gərdunun, dünyanın cavabı çox düşündürücüdür. Dediyindən məlum olur ki, Məcnun aqilliyə, alimliyə, insanlığa mənim sayəmdə çatsa da, onu "dəli" - "Məcnun", - sən adlandırıbsan. Günahı özündə, yaşadığın cəmiyyətdə axtar!..

Divanə ona sən eylədin ad,
Səndən ona yetdi zülmü bidad!

Mövzu ətrafında düşünərkən çox mətləbləri çözələmək lazım gəlir. Şairin "Şikayətnamə"- əsəri barədə qısa qeydlərlə kifayənlənəcəyəm. Bu əsərlə şair dövrünün, zamanının əxlaqi portretini yaratmışdır. Bu yerdə yaşadığı əsrini "ayinəsi", haqq səsi olan görkəmli satirik şairimiz M.Ə.Sabirlə necə də birləşir! Şair başına gələnləri əsərin əvvəlində nəzm şəklində qələmə alaraq "səhvini" etiraf edir:

Təmə-əşrarə xadim olmaq imiş,
Süfəhayə mülazim olmaq imiş...

Vəqv idarəsi şairi belə qarşılayır:

Salam verdim, rüşvət deyildir, - deyə almadılar.

Qızıl kimi sözlərdir, elə deyilmi?! Şairin Övqaf idarəsində rastlaşdığı rəzalətlər bir cümlədə ildırım kimi çaxmış, dövrün naqis əxlaqı bütün kəskinliyi ifşa edilmiş domokl qılıncı kimi naqisliyin qənimində dayanmışdır!

**Füzuli mərifət və əxlaq tərənnümçüsü kimi**

Zamanında Mövlanə Məhəmməd Füzuli Bağdadi kimi ariflər, aqillər arasında şöhrət qazanan dahi Azərbaycan şairi Məhəmməd Füzuli təkcə şair deyildir. O, dövrünün görkəmli filosofu, mütəfəkkiri, əxlaq nəzəriyyəçisi, pedaqoqudur. Elə bir əsəri yoxdur ki, mərifət, əxlaq, kamillik təbliğ edilməsin, əksinə, naqislik, cahillik, şər, böhtan, paxıllıq və digər şeytanı nəsnələr pislənməsin, ifşa edilməsin. Şairin düşüncəsinə görə insanın irəli getməsi üçün iki qanada ehtiyacı vardır: biri elmdirsə, o biri mərifətdir:

Elm ilə, ədəblə tapılar şərəf,
Mirvari olmasa, nə lazım sədəf?

Sözün məqami şairin məşhur "Söz" qəzəlində daha tutarlı şəkildə ifadə olunmuşdur. Şairə görə mərifət dəryasının ən dərin qatlarına baş vuran arif, bilici insanlar dəryalar dibinə enərək içində incilər olan sədəfləri üzə çıxaran qəvvaslara bənzəyir. Fərq ondadır ki, mərifət əhlinin əldə etdiyi incilər tükənməyən mənəviyyat iksirləridir:

Olmayan qəvvasi - bəhri - mərifət arif deyil,
Kim sədəf tərkibi - təndir, lölöi-şəhvar - söz.

Cahilin, nadanın arifə rişxənd etməsi, onu aşağılamağa çalışması kamalla bağlıdır. Beləsinin xisləti, zatı təmiz olsa, buna təbii ki, yol verməz. Dahi Füzuli bu kimi qeyri-insani halları, təbii ki, görür, məqamında münasibət bildirirdi. Şairə görə cahilin kamal, mərifət, elm, əxlaq sahibinə çamur atması başa düşüləndir. Çünki onda əhli-kəmalı qiymətləndiriləcək ağıl, səviyyə yoxdur:

Əhli-kəmalə cahil əgər qədr qılmasa,
Məzurdur, məlamətin etmək rəva deyil.
Cahil təbiətində məzaqi - kəmal yox,
Hər nəfsə iqtidai - təbiət xəta deyil.

Şair qitələrindən birində poetik tapıntılarla pedaqoji fikirlərini təqdim edir, bir kamili- mürşidi, əxlaq nəzəriyyəçisi olaraq yekun qənaətlərini ortaya qoyur:

Hər kimin var isə zatında şərarət küfrü,
İstilahati - ülum ilə müsəlman olmaz.
Gər qara daşı qızıl qan ilə rəngin edəsən,
Təbə təğyir verib, ləli - bədəxşan olmaz.
Eyləsən tutiyə təlim ədayi-kəlimat,
Nitqi insan olur, əmma özü insan olmaz.

Bu kimi həkimanə misallara şairin bütün əsərlərində genişliyi ilə rast gəlinməkdədir.

**Füzuli söz sərrafı kimi**

Bütün klassik şairlərimiz sözə müqəddəs varlıq kimi baxmış, gözəl sözü insanı tanıdan, mənəviyyatımızı zənginləşdirən gözəl insi olaraq vəsf etmişlər. Dahi söz ustası, bədii sözün kamil sərrafı Füzuli yaradıcılığında sözün tərifatı həm qəzəllərində, həm epik əsərlərində, həm də nəsr əsərlərində bütün aydınlığı ilə ifadə olunmuşdur. Hər şeydən əvvəl şairin divanlarına yazdığı dibaçələrdə, müqəddimələrdə sözün məqamı barədə fikirlərinə aydınlıq gətirmək istəyirəm. Fars dilində qəzəllər divanının dibaçəsində şair fikrini belə əsaslandırır: "Kəlam (söz) necə bir nazik sapdır ki, o xəzinənin dürrləri dənə - dənə bu sapa elə bir nizamla düzülmüşdür ki, heç bir məna onsuz surət ala bilmir:



Söz mənadan asılıdır, məna sözdən hər zaman,
Bir-birindən asılıdır necə ki, cism ilə can".

Bu səbəbdəndir ki, şair dünyanın əşrəfi, gövhəri saydığı insanda sözü cövhərlə, nadir inci ilə müqayisə edərək qəsidələrinin divanına yazdığı dibaçədə demişdir: "Elə ki, mən əşyanın keyfiyyətini təhqiq üçün fərasət gözünü açdım, hikmət əsərlərinin tamaşa çölünə təfəkkür qədəmi qoydum, aləm sədəfində insandan qiymətli bir gövhər görmədim və insan gövhərində isə sözdən şərəfli cövhər tapmadım:" Şair ardınca nəzm ilə fikrini davam etdirir:

Hər şeydən yüksəkdir sözün məqamı,
Hər yerdə sevərlər sahib- kəlamı

Maraqlı cəhət ondadır ki, şair söz barədə dəyərləndirmələrinə qüdrətli sənətkar qələmi ilə cavab verir, nadir, qadir şeir inciləri yaratmağa müvəffəq olmuşdur. Dahi şair heç bir klassik şairin edə bilmədiyi bir səviyyədə sözlə davranmış, sözün gücü ilə poetik lövhələr yaratmağa müvəffəq olmuşdur. Elə buna görədir ki, bir çox füzulişünaslar onu "Söz sənətinin mahir rəssamı" adlandırırlar. Yazının həcmi inkar verməmədiyindən bir -iki nümunə ilə kifayətlənmək istəyirəm. Şairin "Pənbeyi - daği -cünun içrə nihandır bədənim", - misrasıyla başlayan qəzəlinin altıncı beytində şeirin texnikasına diqqət yetirək:

Bülbüli - qəmzədəyəm, bağü bəharım sənsən,
Dəhənü qəddü rüxün, qönçəvü sərvü səmənim.

Şair bir beytdə beş təşbeh işlətməklə yanaşı, sözlərin sırasını elə incəliklə düzə bilmişdir ki, bənzəyənlər bir tərəfdə, bənzədilənlər isə digər sırada yer almışdır. "Dəhənin - qönçədir, qəddin - sərvdir, rüxün, üzün - səmənidir", - deyən şair söz ustadı olduğunu nümayiş etdirir. Başqa bir nümunəyə diqqət edək. Şairin "Məni candan usandırdı, cəfadan yar usanmazmı? - misrasıyla başlayan qəzəldə lirik qəhrəmanın dilindən söylənilir:

Şəbi - hicran yanar canım, tökər qan çeşmi giryanım,
Oyadar xəlqi əfqanım, qara bəxtim oyanmazmı?

Bir beytdə güclü istiarə ilə yanaşı, bədii sualın, daxili qafiyənin, bədii təzadın hansı ustalıqla işlədildiyinin fərqinə varırsınızmı? Olmayanı Füzuli qələmi olan kimi bizə mənəvi şərbət olaraq həzm etdirir, inandırır, sözün, səsin ahəngi bir rübabın tərənəsini xatırladır:

Olsaydı məndəki qəm Fərhadı mübtəladə,
Bir ah ilə verərdi, min Bisütuni badə.

Fərhadın görə bilmədiyini Füzuli ahı ilə əmələ gətirir. Füzuli sözünün, sənətinin qüdrəti buna qadirdir! Füzuli sözü, Füzuli şeiri möhkəm, dərin, saf təməllər üzərində qərar tutmuşdur. Elə təməllər ki, onun arifanə, irfani duyğuları, ilahi meydən mayalanmış poetik düşüncələri insanları yoldan azdıran şeytanın evini xaraba qoymuş, insanlara gözəllik, inam, məhəbbət aşılamışdır:

Keçdi meyxanada el, məsti-meyi -eşqin olub,
Nə mələksən ki, xərab etdin evin şeytanın.

Təbii ki, bu istiqamətdə geniş bəhs açmaq mümkündür. Danışmaq imkanım isə məhduddur. Gözüm, sözüm arxada qalsa da, yeni bəhsə keçmək zorundayam.

"Mənəm ki, qafiləsaları - karivani - qəməm" - yaxud:

Füzuli mənəvi müasirimizdir

Gözəl söz, müdrik söz sahibini yaşadır, ona həmişəyaşarlıq qazandırır, zamanları qabaqlayaraq bütün dövrlərin, ictimai-siyasi mühitlərin həməsrinə çevirir. Füzuli babamız kimi...

Anadan olmasından 530 il keçməsinə baxmayaraq, bu gün də Füzuli haqqında necə də böyük məhəbbətlə, iftixarla danışırıq. İnanıram ki, neçə-neçə 530 illər keçəcək, Füzuli yenə də öz sözü ilə insanların həməsrinə çevriləcək, bəşər övladının qəlb aləmini günəş təki işıqlandıracaqdır. Könlü inciləri sədəf, sözləri "dürri qəltani", zehni dəniz, dərya, kəlamlar allah feyzi, düşüncələri əbri-neysan, bahar yağışı olan bir söz loğmanı unudula bilərmi?! Tərkibbəndlərinin birində sözünə "Mənəm ki, qafiləsalari - karivani- ğəmən", - deməklə başlayan şairin söz-sənət karvanı dünəndən bu günümüzə, bu gündən gələcəyimizə təkcə qəm deyil, həm də eşq, sevgi, insanlıq, işıq daşımaqdadır...

Harda gözəllik varsa, harada şərə, cahilliyə, zülmə qarşı mübarizə varsa, Füzuli babamız ordadır. Harada Azərbaycan, harada türk dünyası varsa, dahi Füzuli ordadır. Harada humanizm var, dünyanı qoruyub saxlamaq istəyən tərəqqipərvər, insansevər bəşəriyyət varsa, milli şeirimizin iftixarı Füzulimiz oradadır! Sözü ilə, düşüncələri ilə bizi daim silahlandırır, mənəviyyatımızı zənginləşdirir. Füzulini sevmək Vətəni, milləti, dövləti, dövlətçiliyi sevmək deməkdir!

Dərin məna yükü ilə süslənmiş Füzuli poeziyası bizə mübarizlik ovqatı aşılayır, vətən, haqq işi uğrunda fədakarlıq duyğuları tərbiyə edir. Qazandığımız bütün zəfərlərdə dahi Füzulinin özünəməxsus payı vardır. Dahi şairin bütün əsərlərində, xüsusən peyğəmbərlik tarixinə, eləcə də Kərbəla faciəsinə həsr etdiyi məşhur "Hədiqətüs- süəda" əsərində təlqin etdiyi mübarizə əzmi 44 günlük Vətən savaşında hünər göstərən Vətənə fəda olan, igidlərimizin şəhidlərimizin canında, qanındadır:

Zülm ilə ləzzəti olmaz həyatın, dustlar,
Həqdi-can sərf eyləyib dünyada kam almaq gərək.
Əcz ilə dönmək ədudən səhldir, himmət tutub,
Ya şəhid olmaq gərək, ya intiqam almaq gərək!

Bax, bu kimi canlı, həmişəyaşar fikirlərə görə, bütün dövrlərin həqiqi Məcnunu olan Füzuli babamız mənəvi müasirimiz olaraq yaşayır və daim yaşayacaqdır!

Dahi Azərbaycan şairi barədə təkcə alimlərimiz danışmamış, silsilə elmi əsərlər, monoqrafiyalar yazmamışlar. Füzuli yaradıcılığı müasir bədii ədəbiyyatımızda da maraqlı mövzu kimi işlənmiş, həm poeziyada, həm nəsrdə, həm də dramaturgiyamızda dahi şairin parlaq portreti yaradılmışdır.

Klassiklərimiz, eləcə də dahi Azərbaycan şairi Məhəmməd Füzulinin bənzərsiz yaradıcılıq dünyasına diqqət və qayğı ölkəmizdə yüksək dövlətçilik düşüncəsi ilə davamlı olaraq qiymətləndirilmiş, silsilə tədbirlər, yubileylər həyata keçirilmiş, əsərləri davamlı olaraq nəşr edilmişdir. 1994-cü ildə ümummilli lider Heydər Əliyevin Məhəmməd Füzulinin 500 illik yubileyi haqqında məlum Sərəncamı, həmin humanist siyasətin məntiqi davamı olaraq Prezident İlham Əliyevin 2024-cü ilin yanvar ayında Məhəmməd Füzulinin 530 illik yubileyinin keçirilməsi barədə məlum Sərəncamı bu sevginin, diqqətin bariz ifadəsidir.

***2025***